*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 fevral 2020-ci il № 15 (2433) Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

## Ordumuz - qürurumuz



Əsgərlərin əhatəsində zamanın necə sovuşduğunu hiss etmirsən. Zamanı dəyərində yaşayaq deyə əsgərlərə deyəcəm ki, ordumuz məmləkətimizin gözlərinin nurudu, dizlərinin taqətidi, ürəyinin təpəridi deyimi sizə görə yaranıb. Ordu əsgər deməkdi. Sizin hər birinizi hər birimiz ordu qüdrətilə sevirik. Bu sevgi yerə-göyə sığası sevgi deyil. Bu sevgidə yaşada-yaşada yaşatmaq qüdrəti var. Siz bu qüdrətin əsgərisiniz...

"N" hərbi hissəsindəyik. Bir azdan düşüncələrimiz əsgərlərin düşüncələriylə qoşalaşacaq - mətləb verib mətləb alacağıq, o anları Zəlimxan Yaqubun təəbirincə desək, ömrə yazılan dəqiqələr adlandıracağıq...

Salam-əleyk bitər-bitməz başlayan söhbətin könlümüzü telləndirəcəyinə əminliklə gənc əsgərlərə deyirəm ki, ön xətdə xidmət edən əsgərlərin görüşünə gələndə bir ürək tutumunca ümidlə gəlmişik, geri dönəndə ümidimizi inamımız əvəzləyib. Dönüşümüzdə inamımızın boyu gəlişimizdə düşüncələrimizin də, ürəyimizi bürüyən ümidin də boyundan çox-çox böyük olub. Bu əminliklə sizin əhatənizdən döyüş növbətçiliyi aparan əsgər qardaşlarınıza xitabən deyirəm: ön xətdə, səngərlərdə düşüncələrim sizin işıqlı düşüncələrinizlə qoşalaşanda sizi də, bizi də yaşadan məfkurənin qoşa cəfakeşi olanda elə bilirəm dünya mənimdi. Taleyimə qazanc bildiyim həmin anlarda ürəyim sevincimə darlıq edir. Gözəl anların gözəlliyində dərk edirəm ki, mənim olan dünya, əslində, Hərbi anda sədaqətinizə görə sizindi. Sizin olan dünya sizə görə həm də bizimdi. Sizə görə bizim dünyamızın işığına heç zaman zaval olmayacaq!

Zabit Amil Məhərrəmoğlu əsgərlərə baxır, yəni, bu fikrə nə deyirsiniz. Sükutu əsgər Təbriz Rüstəmovun qətiyyəti, həm də inamlı qətiyyəti çilikləyir:

- Yaxın vaxtlarda biz də döyüş növbətçiliyi aparacağıq. Komandirlərimizi əmin edirəm ki, bu gözəl kəlmələr onda bizə də ünvanlanacaq.

- Ön xətdə, səngərlərdə əsgərlərlə səmimi söhbətlərimizin başlıca mahiyyəti Vətən olur, dövlət olur, dövlətçilik olur. Bütün söhbətlərimizi torpaqlarımızın işğaldan tamamilə azad edilməsiylə nəticələnəcək döyüşlərlə qazanılacaq Böyük Qələbə tamamlayır. Yerə-göyə sığmayan qürurla ordumuzdan danışırıq, 2016-cı ilin Aprel döyüşlərini xatırlayırıq, qazanılmış qələbənin həm hərbi, həm də mənəvi dəyərindən danışırıq, - deyirəm və umacaqlı baxışlarım əsgərlərə dikilir. Gözəl kəlamlara təşnə könlümü bürüyəsi kəlmələr eşitmək istəyirəm.

Əsgər Hüseyn Vəliyevin nəsə demək istədiyini sezmək çətin deyil - zabit Amil Məhərrəmoğluna baxır, yəni, söhbətə qoşulmağa icazə istəyir.

- İctimai-siyasi dərslərdə bunlar haqqında bizə danışıblar, asudə vaxtlarda biz bilmədiklərimizi bir-birimizdən bu haqda danışa-danışa öyrənirik, öyrənə-öyrənə danışırıq.

**(Ardı 2-ci səhifədə)**

# Ordumuz - qürurumuz

(Əvvəli 1-ci səhifədə)

Əsgər Etibar Nağıyev əsgər yoldaşının fikrini qibtəedilləcək şəkildə tamamlayır:

- Asudə vaxta əsgərlərin özlərinin təşkil etdiyi vətənpərvərlik dərsi də deyə bilərik.

- Etibarın fikrinə şərikəm. Vətəndən, dövlətçilik tarixindən, torpaqdan, torpaqların işğaldan azad edilməsindən, şəhidlikdən, şəhidlərdən danışılan dəqiqələr, saatlar, əlbəttə ki, əsgərlərin vətənpərvərlik duyğularını daha gərəkli səviyyədə formalaşdırır, - əsgər Fərid Novruzov belə deyir.

Zabit əsgərlərin fikirlərini pedaqoji proses baxımından mahiyyətli şəkildə yekunlaşdırır:

- Asudə vaxtın bu səviyyədə dəyərləndirilməsi bir zabit olaraq məni qürurlandırır. Asudə vaxt hər hərbi hissədə özünəməxsus xüsusiyyətləriylə fərqlənsə də, hamısının mahiyyəti bu əsgərlərin dediyi kimidir: mənəvi-psixoloji hazırlıqda gərəkli pedaqoji, didaktik vasitə.

Söz sözü çəkir, bir mətləb digər mətləbə başlanğıc olur. Bütün mətləbləri müqəddəs bir niyyət birləşdirir: torpaqlarımızın işğaldan azad edilməsi.

Əsgər Alı Mirzəyev hamımızı duyğulandıran bir fikir bildirir:

- Qonşumuz Mahmud hərbi xidmətdən tərxis edildikdən sonra ordu həyatından, 2016-cı ilin Aprel döyüşlərində iştirakından, qəhrəmanlardan, Tahir Mirsixanovun düşmənin tanklarını necə vurmasından, Lələtəpədə bayrağımızın necə dikəldilməsindən danışırdı. Onda orta məktəbdə oxuyurdum. Yaşımın azlığına ilk dəfə onda təəssüfləndim. Bu təəssüf nəyi dəyişə bilərdi ki?! İndi əsgərəm. Yaxın vaxtlarda mən də döyüş növbətçiliyi aparacam.

- Bu hamımızın istəyidi. Hərbi anda sədaqətimizdi. Bayaq Aprel döyüşlərini, qazanılan qələbələri, Günnüt zəfərini, Azərbaycan Ordusunun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradları xatırladıq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" fikri hər birimizin düşüncələrindədi. Biz güclü ordunun əsgərləriyik, - əsgər Murad Əliyev belə deyir. Alı əsgər dostunun müdaxiləsindən məmnunluqla gülümsünür. Murad fikrini milli-xəlqi ruhumuzun istəyini ifadə edən gözəl bir mətləblə tamamlayır:

- Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımız işğaldan azad ediləcək, sərhədlərimiz daxilində səngər olmayacaq. Hamımız istərdik ki, döyüş növbətçiliyini səngərlərdə deyil, sərhədlərimizdə aparaq. Həm də qalib əsgər kimi. Alının qonşusu Mahmud kimi biz də çağırışçılara qələbədən, qələbəni necə qazanmağımızdan danışaq.

Bu fikirlər mənə Lələtəpədə, Bayraqtəpədə, Günnütdə dalğalanan, göy üzünün göylüyünü bürüyən bayraqlarımızın əzəmətini xatırladır. Bu kəlmələr o əzəmətdən güc aldığı üçün bunca doğmadı, bunca şirindi, hər kəlmədə Vətən var deyə, Hərbi anda sədaqət var deyə, dövlətə, dövlətçiliyə məhəbbət var deyə, bunca munisdi.

Gənc əsgərlərə xitabən deyirəm ki, bayaq əsgər Murad Əliyevin fikirlərini hamımız maraqla dinlədik, duyğulandınız. Ön xətdə əsgərlərdən biri demişdi ki, əsgərlə birlikdə Vətən sevgisi də döyüş növbətçiliyi aparır.



Onda əmin olduq ki, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan əsgərinin Vətən sevgisi də yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdir.

Əsgər Amil İmanzadə deyir ki, biz güclü, qüdrətli bir ordunun əsgəri adıyla da qürurlanırıq, bu düşüncəylə xidmət edən, bu gözəl düşüncəsini düşüncələrimizə hopdurduğumuz o əsgərlərin amal qardaşı olmağımızla da.

Əsgər Elxan Almazzadə əsgər dostunun fikrinə qüvvət kimi deyir:

- Qürurlanmaq öz yerində, biz əsgərlər bu qürura, deməli, Vətənin adına layiq xidmət etməliyik. Vətənin adına layiq xidmət Hərbi anda sədaqətdi, Hərbi Nizamnamələrin tələblərinə əməl etməkdi, komandirlərin, zabitlərin əmr və göstərişlərini vaxtında, məsuliyyətlə, sözsüz yerinə yetirməkdi.

Belə gözəl niyyəti düşüncələrimizə ahənrüba olan əsgəri bağrıma basmaq keçir könlümdən.

Bu bilgilər indi dünyagörüşüdü. Bu dünyagörüşü əsgərə, əsgərlərə hərbi xidmətin ilk ayları aşılayıb.

- Ön xətdə, səngərlərdə şəhidlikdən, şəhidlərdən də danışırıq. "Bu dəfə "şəhidləri xatırlamaq" ifadəsi əsgərlərin könlünə yatmamışdı, yaddan çıxmayanların xatırlanması deyimindən narazı qalmışdılar. Bu narazılığa görə mən onlardan razı qalmışdım", - deyirəm. Əsgərlərin baxışlarında hər dəfə müşahidə edəndə könül xoşluğu duyduğum bir qətiyyət var. Bu qətiyyəti "yaddan çıxmayanların xatırlanması" deyimindən narazı qalanlara təşəkkürə yozuram. Az sonra əmin oluram ki, yozumumda yanılmamışam:

- Düşüncələrimiz Azərbaycan əsgərindən qələbə gözləyən uca ruhlardan heç zaman iraq olmayıb, son nəfəsimizəcən də olmayacaq, - əsgər Alı Mirzəyev belə deyir. Alı fikrini tamamlayar-tamamlamaz əsgərlər məmnunluqla "Elədir, Alı, elədir", - deyirlər. Könülə xoş gələn bu birliyi, həmrəyliyi böyük sexavətlə və məsuliyyətlə düşüncələrimə köçürürəm...

Görürəm ki, əsgərlərimizin ürəyi döyüşə, Böyük Qələbəyə köklənib. Bu köklənmənin mahiyyəti döyüş əzmidi, qələbə ruhudu.

"N" hərbi hissəsinin gənc əsgərlərinin timsalında Azərbaycan Ordusunun əsgərlərinə xitabən deyirəm ki, Ali Baş Komandanın döyüş əmri Böyük Qələbəylə tamamlanacaq. Bu dönməz inam Azərbaycan Ordusunun qüdrət simvollarından biridi.

"Səngərləri sərhədlərə köçürəcəyik" - Azərbaycan əsgərinin düşüncələrinin qətiyyətidi...

"Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!" - Azərbaycan əsgərinin hərbi xidmətlə bağlı düşüncələrinin mahiyyətidi...

"Səni yaşatmaq üçün qoruyuruq, Ana Torpaq!" - etirafı "Vətən səngərdən sərhəd bütövlüyüylə görünür" deyən Azərbaycan əsgərinin düşüncələrinin müqayisəyəgəlməz səmimiyyətidi...

Nə gözəl düşünürsən, Azərbaycan əsgəri. Ön xətdə sənin düşüncələrinin işığından baxırıq. Ön xətdən qarşı tərəfə döyüş növbətçiliyi aparan əsgərlərin Vətən sevgisinin gözləriylə baxırıq. Yusiflərin, Vəzirlərin, Tofiqlərin, Etibarların, Rasimlərin, Mübarizlərin, Raqufların, Samidlərin,... döyüş yolunu Ali Baş Komandanın əmriylə sən qələbəylə tamamlayacaqsan. Sən qalib gələcəksən, Azərbaycan əsgəri! Sən azərbaycançılığın əsgərisən!

Nə gözəl düşünürsən, Azərbaycan əsgəri, nə gözəl düşünürsən!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

*Qələbə - 75*

# "Yazılsın tarixə bir qızıl xətlə 45-ci ilin 9 may günü..."

*İkinci Dünya müharibəsində Azərbaycan xalqı da faşizmə qarşı dünyanın digər azadlıqsevər xalqları ilə çiyin-çiyinə vuruşub. İllər keçsə də, bu müharibənin ağrı-acıları unudulmayacaq.*



Görkəmli Azərbaycan şairi Səməd Vurğun böyük ilhamla, qürurla yazmışdı:

Yazılsın tarixə bir qızıl xətlə
45-ci ilin 9 may günü...

75 ildir bu tarixi böyük coşqu ilə, böyük ehtiramla qeyd edirik. Böyük Vətən müharibəsinin ağrı-acıları xatirələrdə hələ də yaşayır.

Müsahibim Nəsimi rayon Veteranlar Təşkilatının sədri, müharibə veteranı İsmayıl Mövsüm oğlu Fərəcov 1924-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dünyaya gəlib. 1942-ci ildə hərbi xidmətə çağırılıb və Kazım İsmayılovun rəhbərlik etdiyi 77-ci Stavropol diviziyasında kəşfiyyatçı kimi xidmət edib.

Müharibə veteranı dedi ki, Mozdokdan başlayan bu döyüşlər Berlinə kimi gedib çıxdı. "Moldova, Çexoslovakiya, Rumıniya, Polşa, Macarıstana kimi döyüş yolu keçmişəm. O ağrı-acılı, barıt qoxulu günləri sanki dünən kimi xatırlayıram. Kəşfiyyatçı olduğum, tez-tez düşmən arxasına keçdiyimiz üçün çətin vəziyyətlə üz-üzə qalırdıq. Belə əməliyyatlardan birində iki dəfə yaralanmışam. Alman ordusunun dərinliklərinə kimi gedib çıxmışdıq. Ot tayasının içində gizlənib müşahidə aparırdıq. Sovet qırıcıları o ərazini bombalamağa başladı. Xeyli düşmənin məhv olduğu o anlarda yaralandım. Bu gün də gicgahımdakı qəlpənin əziyyətini çəkirəm. Kürəyimdən də yara almışdım. Bütün bu olanlara baxmayaraq, lazımi məlumatları toplayaraq geri döndük.

Yenə kəşfiyyat çıxışlarımızdan birində Dnepr çayını keçirdik ki, almanlar bizim gəldiyimizi hiss edib atəşə tutdular. Müdafiəmiz zəif olduğundan geri qayıtdıq. Onda itkilərimiz çox olmuşdu. Buna baxmayaraq, ruhdan düşmədik. Növbəti dəfə yenə getdik və almanları yerlərinə oturtduq".

Yaşı əsri haqlayan İsmayıl baba vurğuladı ki, müharibənin hər anı ölümdü, dəhşətdi... "Öldürdüyüm almanların sayı-hesabı yox idi. Qeyri-təvazökar səslənsə də, şişirdir desələr də və ard içirəm ki, bu həqiqətdir. O müharibə ölüm-qalım müharibəsi idi. Heç kim sağ qayıdacağını düşünmürdü. Əgər gecə dəstəmizdə 60-70 nəfər var idisə, sabah xəbər çıxırdı ki, 20-25 nəfəri həlak olub. Gecə-gündüz vuruşurduq. Qışda əziyyətimiz daha çox olurdu...".

İkinci Dünya müharibəsinin bəşəriyyətə vurduğu yaralardan ürək ağrısıyla danışan veteran xəyalən yenidən o illərə qayıdırdı. "Keçmiş SSRİ-nin elə bir ucqar məkanı qalmadı ki, bu dəhşətli müharibə həmin yerlərə acıq, müsibət, göz yaşları gətirməsin. O dövrdə Vətən anlayışı milliyyətindən, dilindən, dinindən asılı olmayaraq hər bir insan üçün əziz və müqəddəs idi."

75 ildir qolunda gəzdirdiyi saatın Stavropol döyüşlərinin yadigari olduğunu deyən İsmayıl baba hər dəfə ona baxanda müharibəni və silahdaşlarını xatırlayır.

İsmayıl Fərəcov daim ictimai işlərdə, əhali arasında olduğunu bildirdi. Gənclərimizlə görüşlərdə onlara Vətənin insan üçün hər şeydən öndə gəldiyini, bir parça Vətən torpağının nə qədər əziz olduğunu, uğrunda canlar fəda edildiyini qeyd etdi.




Bir əsrlik ömür sahibi veteranlara olan xüsusi diqqət və hörmət hisslərinin əsasının ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulduğunu xatırlatdı.

- Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən dövlət başçımız İlham Əliyev daim bizim qayğımıza qalır. Bütün problemlərimiz tez bir zamanda qaydasına qoyulur. Bu həyatda mənim ən böyük arzum doğma Vətənimdə Qələbə müjdəsi almaqdır. Ordumuzun Aprel döyüşləri, Günnüt zəfəri, keçirilən paradlar onu deməyə əsas verir ki, Qələbə müjdəli sabahlar bizi gözləyir…

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Ən yaxşı hərbi aşpaz" adı uğrunda yarış keçirilib

*Müdafiə Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsinin 2020-ci il üçün hazırlıq planına əsasən, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi-təhsil müəssisələrində çalışan hərbi aşpazların nəzəri bilik və praktiki bacarıq səviyyələrini yoxlamaq üçün "Ən yaxşı hərbi aşpaz" adı uğrunda yarış keçirilib.*






Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarış bölmələrdə xidmət edən aşpazların praktiki təcrübələrinin təkmilləşdirilməsi, yeməkxanaların nümunəvi vəziyyətdə saxlanılması, yeməklərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə keçirilib.

Üç mərhələdə keçirilən yarış vaxtı qidanın düzgün hazırlanmasına, ərzaq məhsullarının emalı zamanı əmələ gələn tullantıların normalarına, texnoloji avadanlıqlardan düzgün istifadə edilməsinə, xüsusi geyimin təmizliyinə, sanitariya-gigiyena tələblərinə ciddi riayət edilməsinə və digər amillərə xüsusi diqqət yetirilib.

"Ən yaxşı hərbi aşpaz" adı uğrunda keçirilən yarışın yekununda qaliblər müəyyən edilərək mükafatlandırılıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Ordusunun nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edir

Azərbaycan Ordusunun nümayəndələri Tbilisi şəhərində (Gürcüstan) Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli kiber təhlükəsizlik üzrə təcrübə mübadiləsi, Oberammerqau şəhərində (Almaniya) "Döyüş hazırlığının qiymətləndirilməsi" kursu və Ankara şəhərində (Türkiyə) "Silahlı münaqişə hüququ" kursunda iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***24 fevral 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Abdinli, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***25 fevral 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Quşçu Ayrım, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Əsrik Cırdaxan kəndlərində və adsız yüksəkliklərdə, Gədəbəy rayonunun Qaravəlilər kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Füzuli rayonunun Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# Vətən sevgisi ilə döyünür ürəyimiz!

*Qışın sazağında, yayın istisində Vətənimizin keşiyində duran əsgərlərlə söhbətləşəndə onlardan eşitdiklərimiz müasir ordu quruculuğu sahəsində aparılan islahatların nəticələrini tamamlayır. Azərbaycan Ordusunun gücünün artması, şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsi, sosial-rifahının yaxşılaşdırılması ilə bağlı fikirlər həm ordu quruculuğunun dönməzliyinin təsdiqi kimi dinlənilir, həm də əsgərlərin dünyagörüşünün genişliyi kimi. Bunlar vətənpərvər gənclərin bu peşəyə olan marağına öz müsbət təsirini göstərir.*




Ön xətdə baş leytenant Kərim Qədirovla birgə xidmət etdiyimiz ötən günləri xatırladıq. İndi baş leytenant olan Kərim Qədirov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur.

Zabit "Necə oldu ki, hərbçi olmaq fikrinə düşdünüz?" - sualına cavab olaraq dedi:

- Bu peşəni seçməyimə özüm qərar verdim. Ailəm verdiyim qərara hörmətlə yanaşdı və onların xeyir-duasını aldıqdan sonra sənədlərimi aidiyyəti üzrə təqdim etdim. İmtahan, məktəbə daxil olmağım, kursantlıq dövrüm xatirimdə əbədi həkk olunan hadisələrdir. Lakin leytenant hərbi rütbəsini aldığım gün mənim üçün xüsusi əhəmiyyətə malikdir və həyatımın dönüş nöqtəsi olan təqvim kimi ömür səhifəmdə özünəməxsus yer tutur.

Gənc zabit ordumuza göstərilən diqqət və qayğıdan da söz açdı.

- Dünyanın ən güclü orduları sırasında Azərbaycan Ordusunun adının da olması qürurvericidir. Ordumuz bu gün çiçəklənən dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin ordu quruculuğu siyasəti Ali Baş Komandan İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Aparılan islahatlar, müasir standartlara cavab verən hərbi hissələr, silahlanmaya daxil olan müasir texnikalar, şəxsi heyət üçün yaradılan sosial-məişət şəraiti ordunun istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığına yüksək təsir göstərir. Hərbi qulluqçuların psixoloji, fiziki və praktiki-nəzəri hazırlığı da əsasdır. Rəhbərliyin tez-tez (xüsusi ilə də bayram günlərində) ön xətdəki bölmələri ziyarət etməsi, qayğı və problemlərimizlə maraqlanması biz hərbçilərə əvəzsiz stimul verir.

"Azərbaycan əsgəri relyefindən, hava şəraitindən asılı olmayaraq qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlmək iqtidarındadır", - deyə zabit sözünə davam etdi. - Bölməmizin də şəxsi heyəti öz növbəsində vəzifəsinin müqəddəsliyini bilir, Vətəni qorumağın vacibliyini və bunun məsuliyyətini dərk edir. Hər bir komandir tabeliyindəki əsgərin bacarıqlı, operativ olmasını istəyir. Şəxsi heyət keçirilən dərslərdə, təşkil olunan təlimlərdə həvəslə iştirak edir, öz döyüş vərdişini daim artırır. Bölmənin komandir heyəti olaraq, əsgərlərin asudə vaxtının səmərəli təşkili və fiziki hazırlıq məşğələlərinə də ciddi önəm veririk.

Gənc zabit "Vətənpərvərlik hissini necə izah edə bilərsiniz?" - sualımıza cavab olaraq dedi:

- Vətən eşqi, Vətən sevgisi daxildən gələn bir hissdir. Vətənpərvər insan o kəsdir ki, hətta üçrəngli bayrağının dalğalanması, Dövlət himninin səsləndirilməsi belə onun ürək döyüntülərini artırır, ruhuna sığal çəkir. Atəşkəs dövründə yaşasaq da, düşmən öz məkrli niyyətindən əl çəkmir. Azərbaycan əsgəri düşməni cavab atəşi ilə hər zaman susdurur. Baş verə biləcək təxribatın qarşısını vaxtında və operativ alır. Bu gün qəlbi Vətən sevgisi ilə döyünən hər bir azərbaycanlının bir məqsədi var - torpaqlarımızı işğaldan azad etmək və üçrəngli bayrağımızı işğal altında olan ərazilərimizdə dalğalandırmaq. Xalqımız tam əmin olsun ki, Ali Baş Komandanın döyüş əmri ilə Azərbaycan Ordusunun mərd oğulları bu tapşırığın öhdəsindən layiqincə gələcəklər. Həmin təqvim "Böyük Qələbə günü" kimi tarixləşəcək. Hər birimiz Vətənə layiq övlad olmağa borcluyuq.

Zabitə və bölmənin hərbi qulluqçularına uğurlar arzulayırıq. Komandiri təcrübəli, bilikli və ən əsası vətənpərvər olan əsgər də komandiri kimi olacaq.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*General-mayor Həzi Aslanov - 110*

# Həzi Aslanovun davamçıları olan Azərbaycan tankçıları görkəmli sərkərdənin ata ocağını ziyarət ediblər

*İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyi ilə əlaqədar yubiley tədbirləri davam edir.*





Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Lənkəranda keçirilən növbəti tədbirlər də ictimaiyyət nümayəndələri, eləcə də hərbi qulluqçular tərəfindən görkəmli sərkərdənin xatirəsinə böyük ehtiramın təcəssümü olmaqla yanaşı, həm də gənc nəslin ata və babalarımızın qəhrəmanlıq ənənələri ruhunda tərbiyə edilməsi istiqamətində təqdirəlayiq iş kimi dəyərləndirilib.

Nazirliyin rəsmiləri, Aprel döyüşlərinin və Beynəlxalq Ordu Oyunları çərçivəsində "Tank biatlonu" yarışlarının iştirakçısı olan Azərbaycan Ordusunun tankçılarından bir qrupu Həzi Aslanovun ev muzeyində reallaşan vətənpərvərlik tədbirində general Aslanovun həmyerliləri ilə görüşüb, muzey ekspozisiyası ilə tanış olub, ədəbi-bədii proqramı maraqla izləyiblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhə bölgələrindən gələn tankçılar respublikanın Əməkdar artisti, mayor Cahangir Qurbanovun ifa etdiyi "Azərbaycan" mahnısının sədaları altında qarşılanıb.

Qəhrəmanın büstü qarşısına gül çələngi qoyulub, xatirəsi əsgəri ehtiramla yad edilib.

Yubiley tədbirlərinin təşkili üzrə komissiyanın sədr müavini, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Müdafiə Nazirliyinin rəhbərliyi adından tədbir iştirakçılarını salamlayaraq bildirib ki, ötən il dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirmiş və hərb salnaməsində yeni parlaq səhifələr açmışdır. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir.

Prezident Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı Müdafiə nazirinin əmri ilə komissiya yaradılıb, Müdafiə, Təhsil və Mədəniyyət nazirliklərinin birgə planı hazırlanıb və ilin sonunadək bu istiqamətdə tədbirlər davam etdiriləcəkdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Həzi Aslanov irsinə həmişə yüksək qiymət verdiyi qeyd edilib, Ulu Öndərin qüdrətli sərkərdə haqqında fikirləri tədbir iştirakçılarının nəzərinə çatdırılıb: "Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir. O, bu döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi xüsusiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir", "Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə, general, həm də vətənpərvər bir insan, Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır!".

Respublikanın Xalq artisti Qabil Quliyev çıxış edərək "Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Prezident Sərəncamının iki dəfə Sovet İttifaqı Qəhrəmanı general Həzi Aslanovun həmyerliləri tərəfindən də böyük ruh yüksəkliyi ilə qarşılandığını vurğulayaraq Lənkəranlılar adından dövlətimizin başçısı İlham Əliyevə dərin minnətdarlığını bildirib.

Xalq artistinin təqdim etdiyi rekviyem-kompozisiya böyük maraqla qarşılanıb.

Beynəlxalq Ordu Oyunları çərçivəsində "Tank biatlonu" yarışlarında ölkəmizi layiqincə təmsil edən və dünyanın bir çox ordularının tank heyətlərinə qalib gələn tankçılarımızdan baş gizir Məftun İbrahimov, baş əsgərlər Elvin Rzayev və Əsgər Quliyev yarış təəssüratlarını bölüşüb, bu il də qazanacaqları uğurlarla dünya hərb tarixinə Həzi Aslanov kimi görkəmli bir sərkərdəni bəxş etmiş Azərbaycan xalqına yeni qələbə sevincini yaşadacaqlarına söz veriblər.

Belarusun paytaxtından telefon əlaqəsinə qoşulan Minsk şəhərindəki "Qobustan" Azərbaycan İctimai Birliyinin sədri Baxşı Qənbərov Belarus xalqının da Həzi Aslanovun xatirəsini həmişə əziz tutduğunu, Belarus torpağında möhtəşəm abidəsinin ucaldıldığını, yubileylə əlaqədar şəhər və rayonlarda tədbirlər keçirildiyini, televiziya kanallarında mütəmadi olaraq verilişlərin təşkil edildiyini nəzərə çatdırıb və burada yaşayan azərbaycanlıların Həzi Aslanov kimi yenilməz sərkərdə ilə qürur duyduqlarını deyib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Silahlı Qüvvələr qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Prezident Sərəncamı ilə "İgidliyə görə" medalına layiq görülmüş cəsur tankçı Paşa Mehdiyev Lələtəpə fatehləri adından tədbir iştirakçılarını salamlayıb. Həmin döyüşlərdə Həzi Aslanovun hərb elminə gətirdiyi yeniliklərdən, döyüş fəndlərindən məharətlə istifadə edərək düşmən üzərində zəfər çaldıqlarını iftixar hissi ilə xatırlayıb və hər an Aprel döyüşləri zamanı qazandıqları qələbəni təkrarlamağa hazır olduqlarını bəyan edib.

Azad Mərdəliyev, Ceyhun Rüstəmov, Bəhruz Quliyev, Emin Şirinov, Emin İslamov və digər tankçıların işğal altında olan torpaqlarımızın da tezliklə azad ediləcəyinə böyük inam yaradan çıxışları hərarətlə dəstəklənib.

Cəbhə bölgəsindən gələn qonaqlar Aprel döyüşləri zamanı tankçıların istifadə etdikləri tankçı hərbi geyim nümunəsini muzeyə hədiyyə ediblər. Muzeyin direktoru Cəmilə Şərifova Müdafiə Nazirliyinin daim diqqət və qayğısını hiss etdiklərini, muzey fondunun daha da zənginləşdirilməsinə hər cür köməklik göstərdiyini qeyd edərək minnətdarlığını bildirib.

Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Nəsirli, Lənkəran Gənclər və İdman İdarəsinin rəisi Mikayıl Cəfərzadə Prezident Sərəncamından irəli gələn vəzifələrin qəhrəmanın Vətənində də uğurla həyata keçirildiyini bildirib və Müdafiə Nazirliyinin təşəbbüsü ilə keçirilən vətənpərvərlik tədbirlərinin yetişməkdə olan gənc nəslin tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Sovet Ordusu sıralarında, vaxtilə Həzi Aslanovun xidmət etdiyi Ukraynadakı hərbi hissələrdən birində zabit kimi həqiqi hərbi xidmət keçmiş, sonralar Qarabağ uğrunda gedən döyüşlərin iştirakçısı olmuş tankçı İlham Qurbanov, müharibə veteranı Saleh Dostiyev və Biləsuvar rayonundan gəlmiş müəllim Bəhruz Rufullayev çıxış edərək ehtiyatda olan hərbi qulluqçuların da Azərbaycan uğrunda Ali Baş Komandanın hər bir əmrinə hazır olduqlarını bildiriblər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti və Həzi Aslanov adına Lənkəran şəhər 3 nömrəli tam orta məktəbin şagirdləri əfsanəvi sərkərdəyə həsr olunmuş mahnılar, şeirlər ifa ediblər.

"Gənc Aslanovçular"ın çıxışı tədbir iştirakçılarında xoş ovqat yaradıb.

Tankçıların "Hər birimiz Həziyik, hər bir əmrə hazırıq!" şüarı ətrafa yayılaraq Həzi Aslanovun ata ocağında böyük qələbəliyə səbəb olub.

Tankçılara muzey ekspozisiyasında nümayiş etdirilən eksponatlar haqqında ətraflı məlumat verilib, birlikdə xatirə şəkilləri çəkdirilib.

Həzi Aslanovun ev muzeyindən xoş təəssüratlarla ayrılan tankçılar sonra Həzi Aslanov adına Xatirə parkına gedərək görkəmli sərkərdənin əzəmətli abidəsini ziyarət edib, qarşısına çələng qoyub, qərənfillər düzüblər.

Həzi Aslanovun ata yurdu Gərmətük şəhər tipli qəsəbəsində İkinci Dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidə-kompleksini ziyarət edən tankçılar burada kənd sakinləri ilə görüşüblər.

Məlumat verilib ki, Gərmətük Lənkəranın ən qədim kəndlərindəndir. 1905-ci ildə erməni daşnakları bu kənddə qətliamlar törədərək kəndi viran etdikdən sonra Həzi Aslanovun babaları buranı məcburi tərk edərək Lənkəran şəhərinə köçmüşlər. Gərmətüklülər keçən əsrin 18-ci illərində erməni daşnaklarına, 1941-1945-ci illərdə faşizmə, Qarabağ müharibəsi başlanan ilk günlərdən isə torpaqlarımıza təcavüz edən erməni quldurlarına qarşı mərdliklə vuruşub, kəndin neçə-neçə igid övladı şəhidlik zirvəsinə ucalıb. Həzi Aslanovun həmyerliləri bu gün də Azərbaycan Ordusunda Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edir, hərb sənətinə böyük maraq göstərirlər.

Kənd ağsaqqallarından Sərhad Məmmədov, Rafiq İbadov, Aşur Əsədullayev, Cəmil İbadov və başqaları çıxış edərək Azərbaycan Ordusuna güvəndiklərini, onun uğurlarından fərəh hissi keçirdiklərini dilə gətirib, Vətənimizin müdafiəsində dayanan Azərbaycan əsgərinə bundan sonra da Həzi kimi mərd, qorxmaz, Vətəninə sadiq bir oğul olmağı, hərbi peşələrə səylə yiyələnməyi, Ali Baş Komandanın etimadını nümunəvi xidmətləri ilə doğrultmağı arzulayıblar.

Tankçılar Həzi Aslanovun həmyerlilərini əmin ediblər ki, Azərbaycanın bayrağı etibarlı əllərdədir və işğal altında olan digər ərazilərimiz də müdrik Prezidentimiz, qətiyyətli Ali Baş Komandanımızın rəhbərliyi altında azad ediləcək, respublikamızın ərazi bütövlüyü təmin olunacaqdır.



*Ön xətdə disput*

# “Ötən əsrin 26 fevral sazağı”

Qışdı...

Dünən qışın sazağı hiss olunmurdu, güman ki, sabah da hiss olunmayacaq, o biri gün də. 26-sında sazaq olacaq; 28 ildi 26 fevral şaxtalı keçir, Xocalı işğaldan azad edilənə kimi fevralın 26-sı belə yaşanılacaq...

Göylüyü düz-əməlli seçilməyən göy üzünü tül qalınlığında boz bulud topaları bürüyüb...

Ön xəttə çatmaqdayıq. Bir azdan döyüş əzmini, qələbə ruhunu düşüncələrimizin yol göstərəni bildiyimiz əsgərlərin əhatəsində olacağıq, əlimiz əllərdə isinəcək, əlimiz əllər isidəcək. "Bəşərin günahlarına görə niyə dünya qınanır, suçlanır? Rus imperiyasının 366-cı alayının fəal iştirakıyla 1992-ci ilin 25 fevral gecəsi Xocalıda törədilmiş soyqırımına görə də dünyamı qınanmalıdı? Yox, faciəyə - soyqırımına fitva verənlər də mənəviyyat qanunlarıyla cəzalandırılmalıdı", - "N" hərbi hissəsində "Ötən əsrin 26 fevral sazağı" mövzusunda disputa dan yeri söküləndən bəri düşüncələrimin haləsinə dönmüş bu fikirlərin araçılığıyla başlamağa niyyətliyəm.

Disputdan əvvəl polkovnik Babək Səmidli demişdi: "Bu mövzuda disput əsgərlərin mənəvi-psixoloji hazırlığında, əlbəttə ki, səmərəli olacaq. Xocalı faciəsinin yaraları torpaqlarımız işğaldan azad ediləndə qaysaqlayacaq, ondan sonra da unudulmayacaq..."...

Disput başlayır.

Deyirəm ki, tarix üçün böyük rəqəm olmasa da, 28 ildi 25 fevral gecəsinin kəsilməyən, yumşalmayan sazağının dilmancı olan ürəyimizin sızıltıları, ruhumuzun sıxılcımları tarixdən cavab istəyir. Cavab istəyir ki, həm bu səbəblərə görə, həm də bəşəriliyə sədaqətə görə bu sıxıntıların baiskarları mənşər ayağına çəkilsinlər.

Böyük tarixi şəxsiyyət, ən böyük azərbaycanlı Heydər Əliyevin tarixi hadisələrə tarixi münasibəti də tarixdi. Bu tarix həm də Azərbaycan dövlətçiliyi naminə həqiqətin tarixidi. Ulu Öndər deyirdi: "...Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

Zabit Ruslan Novruzov əsgərlərin Xocalı soyqırımıyla bağlı bilgilərini disputun gedişinə yönəltmək niyyətiylə deyir:

- Xocalı 1991-ci ilin noyabrından mühasirədəydi. Xocalı ağır, çətin günlər yaşayırdı, Xankəndi və Əsgəran istiqamətlərindən artilleriya atəşinə tutulurdu. Şəhərə çevrilən Xocalının güzəranı daha da çətinləşirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər rus ordusunun dislokasiya yeri Xankəndi olan 366-cı alayı ilə Xocalıya hücuma keçdi. Şaxtaydı. Sazağıydı...



Əsgərlərin baxışlarında qəzəb görünür, nifrət görünür, hiddət görünür; qəzəb soyqırıma görədi, nifrət soyqırımı törədənlərədi, hiddət qisas harayıdı, döyüş əzmidi, qələbə ruhudu. Əsgərlərin hamısı nəsə demək istəyir...

Əsgərlərin baxışlarında bayaq sezdiyim döyüş əzmi, qələbə ruhu bir qədər coşmaqdadı - kükrəməkdədi; ruhən ruhların qayibanə harayını eşidirəm: Xocalım, ay Xocalım!..

- Xocalını müdafiə edən yeniyetmələrin yerişindən, baxışından, duruşundan duyduğum qətiyyətin, sədaqətin, qələbə ruhunun, Vətən sevgisinin sizin timsalınızda necə əsgərləşdiyini görürəm, yəni, siz onların azərbaycançılığını davam etdirirsiniz, sizin də azərbaycançılığınızı davam etdirəcəklər, - deyirəm.

- Qələbə ruhunun əsgərləşməsi həm gözəl, həm də düşündürən səslənişdi. Xocalı faciəsi bu əsgərlərdən 10 yaş böyükdü. Onlar faciə haqqında valideynlərindən, sonra müəllimlərindən eşidiblər, kitablardan, qəzetlərdən oxuyublar. Hərbi xidmətə başlayanda onlara bu haqda zabitlər də danışıblar. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan əsgərlərimiz Xocalı faciəsinin niyə törədildiyini, necə törədildiyini təfərrüatı ilə bilir, - zabit Ruslan Novruzov fikrimi yaddaqalacaq məntiqlə tamamlayır. 25 fevral gecəsinin, sökülən dan yerinin, fevralın 26-sının dəhşətlərini xatırladır. Zabitin bu inamını biz də, əsgərlər də məmləkətin inamı bilirik:

- Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsüylə "Xocalıya ədalət" kampaniyası 28 il çəkən biganəliyi silkələyəcək, dünya bu soyqırımı törədənlərin, icraçılarının beynəlxalq qanunlar əsasında cəzalandırılmasını tələb edəcək, - deyir.

- Televiziyada Xocalı faciəsindən göstərilən kadrlara əvvəllər başa düşmədiyimə görə baxa bilmirdim, sonralar başa düşdüyümə görə baxa bilmirəm. Nəfəssiz nəvəsini qucağına almış çarəsiz babanın yeri-göyü yandıran naləsinə, fəryadına necə baxasan, necə? - əsgər Əli Həsənovun bəşəriyyətə ünvanlanan bu sorğusu Azərbaycan Ordusunun Böyük Qələbəsiylə cavablandırılacaq...

Öldürülənlər zülmlə öldürülmüşdü...

1992-ci ilin martında "İzvestiya" qəzetində mayor Leonid Kravetsə istinadən məqaləni xatırladıram: "Mən təpənin üstündə 100-ə yaxın meyiti gözlərimlə gördüm. Bir oğlanın başı yox idi, hər yanda xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq və qoca gördüm".

Mənim xatırlatmamı əsgərlər davam etdirir:

- Xocalıda 613 nəfər xocalılı öldürülüb (əsgər Səbuhi Məmmədov).

- 25 uşaq hər iki valideynini itirib (əsgər Nicat Əsgərov).

- Ermənilərin yaxınlaşdığını görəndə cavan qız özüylə götürdüyü xəncəri ürəyinə sancıb (əsgər Səddam Xəlilzadə).

- Erməniləri görən ata əvvəlcə qızını, sonra özünü güllələyib (əsgər Samir Hümmətov).

Baş leytenant Pərviz Abbasov xarici mətbuatda dərc olunmuş informasiyaları xatırladır:

- Londonda nəşr olunan "Sandi Tayms" qəzeti yazıb: "Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər". Moskvada nəşr olunan "İzvestiya" qəzeti yazıb: "Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdi". Londonda nəşr olunan "Tayms" qəzeti yazıb: "Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdı".

Əsgər Cəbrayıl Babayev öz mətbuatımızda oxuduğu və az qala cümlə-cümlə yaddaşına yazdığı məqalənin bir hissəsini xatırladır:

- ... 28 il əvvəlin 26 fevral gecəsinin ilik donduran şaxtası ruhumuzu didişdirir. 28 ildi həmin gecə yeri-göyü qarğıyanların fəryadını, göz yaşları ürəyinə axanların naləsini, taqəti tükənən qocaların təəssüfə bükülü qəhərini eşidirik: "Siz gedin, məni özünüzə yük eləməyin". Halsız qocaların qollarından yapışan qollar görürük. Baba ömrünü nəfəsi duyulan ölümün əlindən aldıqdan sonra həmin gecə donmayan nəvələr indi babadı, nəvələrinə o gecə ölümdən necə can qurtardıqlarını danışırlar...".

Əsgər Əli Həsənov başqa bir məqaləni xatırladır:

- ...Həmin gecə Ağdama üz tutan 6 gənc ana körpələriylə birlikdə bir mağaraya sığınıb.

Analardan biri ağlayan südəmər körpəsinin ağzını əliylə qapayıb ki, ermənilər səsə gəlməsinlər. Körpənin ağlantısı 6 ananın, 7 uşağın ölümünə səbəb olardı. Körpə keçinib. Ana, hıçqırtı içində "Balamı çölün düzündə qoymaram!" - deyib, ciyərparasını belinə şələləyib, Ağdamacan gətirib. Orada bilib ki, körpənin nəfəsi özündədi - sağdı...".

Əsgər Əli Həsənovun xatırladığı, acılarla xatırlatdığı məqaləni mən də acılar içində xatırlayıram. Əsgərin fikrinin davamının cəfasını mənim yaddaşım çəkir:

- O körpə sağdımı? O gecə nəfəsini itirən, dan üzü yenidən doğulan o körpə özünü Xocalı faciəsinin yaşıdı bilir. Haqlıdı. Bu illər ərzində həmin gecə ağzını qapayan əldən öpəndə anasının göz yaşları ürəyinə axıb, şübhəsiz. Deyə bilməyib, deməyib ki, bu əl səni öldürmüşdü, qızım, öldürmüşdü...

Əsgərlərin qaşları çatılıb...

Əsgər Səbuhi Məmmədov maraqlı və gərəkli bir mətləbə toxunur:

- İkinci Dünya müharibəsində faşistlər Belarusun Xatın kəndinin əhalisini bir tikiliyə doldurub yandırmışdı. Bu faciəni SSRİ dağılana kimi dövlətin siyasi manifesti edən imperiya özünün törətdiyi faciəni - soyqırımı ört-basdır etmək istəyir. "Xocalıya ədalət" kampaniyası bu ləyaqətsiz istəyi alt-üst edəcəkdir.

Səbuhinin fikrini Cəbrayıl tamamlayır:

- Miqyasına və öldürülənlərin sayına görə Xocalı faciəsi Xatın faciəsindən daha dəhşətli faciədir...

Hər iki əsgərin dünyaduyumundan, azərbaycançılığından duyğulanırıq...

- İllər keçəcək, rəqəm də dəyişəcək, nəsillər də. Vətənsevərlik yaşayacaq, Vətənə sədaqət yaşayacaq. 28 il əvvəl 26 fevral günü ermənilinin vəhşiliyindən, qaniçənliyindən can qurtaranların, 28 ildi son nəfəsini Xocalıya yetirmək arzusuyla yaşayanlara nə deyərdiniz? - əsgərlərdən soruşuram. "Hamısının mənəvi qardaşıyıq", - deyirlər. "Onları Xocalıya, kəlbəcərliləri Kəlbəcərə, laçınlıları Laçına, ağdamlıları Ağdama, füzulililəri Füzuliyə, cəbrayıllıları Cəbrayıla, qubadlıları Qubadlıya, zəngilanlıları Zəngilana qovuşdurmaq amalıyla xidmət edirik", - kəlmələr and kimi səslənir...

Disput bu ovqatla tamamlanır...

Şaxtada-sazaqda, insafsız soyuqda düşmənin atdığı güllələr dabanlarını qarsılayanların qəhər gecəsidi 25 fevral gecəsi. O gecənin ağrılarını ağrımız, sıxılcımlarını sıxılcımımız, qəhərini qəhərimiz bilmişik. Bu fikir "Ötən əsrin 26 fevral sazağı" mövzusunda disputda əsgərlərin heysiyyətli fikirləriylə də təsdiqləndi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar tədbir keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə "N" hərbi hissəsinin şəxsi heyəti, xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları, ictimaiyyət nümayəndələri və Xocalı faciəsinin şahidləri iştirak ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.



Tədbirdə erməni millətçiləri tərəfindən son 200 ildən artıq bir müddətdə xalqımıza qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı, təcavüzkarlıq siyasəti haqqında danışılıb və Xocalı soyqırımının bu qanlı siyasətin davamı olması bir daha vurğulanıb.

Çıxışlardan sonra Xocalı soyqırımını əks etdirən foto-sərgi tədbir iştirakçılarına nümayiş etdirilib.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin hazırladığı bədii kompozisiya ilə sona çatıb.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Dövlətçilik tariximiz.**
**2. Azərbaycan Atabəylər dövlətinin yaranması və inkişafı.**

**Mövzu:** Dövlətçilik tariximiz. Azərbaycan Atabəylər dövləti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və digər müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*Dövlətçilik tariximiz*

VII əsrin əvvəllərində Azərbaycanın şimalında - Albaniyada Mehranilər sülaləsinin hökmranlığı başlandı. Bu sülalə hakimiyyətini Albaniyanın Girdiman vilayətində qurmuşdu. Sonralar Mehranilərin hakimiyyəti bütün Albaniya dövlətini əhatə etmiş, mərkəzi isə Partav şəhəri (indiki Bərdə şəhəri) olmuşdur. Sülalənin banisi Mehran idi. O, mənsub olduğu sabirlər adlı türk tayfaları ilə birlikdə Girdiman vilayətində məskunlaşdı. Burada Mehrəvan şəhəri salındı.

VII əsrin 60-cı illərində Xilafətdə Əməvilər sülaləsinin nümayəndələri hakimiyyətə gəldi. Əməvilər müharibələri gücləndirdilər. Bizans bu müharibələrdə zəiflədi. Albaniya təklikdə çoxsaylı ərəb qoşunları ilə döyüşdə uğur qazana bilməzdi. Şimaldan xəzərlərin yürüşü, cənubdan isə İran feodallarının hücumu Cavanşirin Xilafətə qarşı münasibətini dəyişdi. Cavanşir uzaqgörən xarici siyasəti ilə Azərbaycanın şimal torpaqlarını - Albaniyanı Ərəb xilafətinin, Bizansın, Sasanilərin və xəzərlərin işğallarından xilas etdi. Lakin müstəqilliyə can atan bizanspərəst feodallar sui-qəsd təşkil edərək 681-ci ildə Cavanşiri qətlə yetirdilər. Onun varisləri isə Albaniyanı qoruya bilmədilər. 705-ci ildə ərəblərin hücumu nəticəsində Albaniyanın daxili müstəqilliyi ləğv edildi.

VII əsrin 40-cı illərində ərəb qoşunları Azərbaycana yürüşə başladılar. Sasani imperiyası dağıldıqdan sonra ərəblər Azərbaycanın işğalını genişləndirdilər. VII əsrdə Azərbaycan uğrunda ərəblərlə xəzər türkləri arasında başlayan müharibələr VIII əsrdə daha da şiddətləndi. Ərəblər Azərbaycanda möhkəmləndikdən sonra xəzərlərə qarşı daha mütəşəkkil müharibəyə başladılar. Buna baxmayaraq, döyüşlərdə hərbi üstünlük gah xəzərlərin, gah da ərəblərin əlinə keçirdi.

Ərəb işğalları və İslam dininin Azərbaycanın bütün ərazisində yayılması əvvəlki dinləri tam sıxışdırıb çıxara bilmədi. Lakin İslam dininin yayılması xalqın taleyində misilsiz dönüş yaratdı. İqtisadi və siyasi sabitlik yarandı. Bu sabitlik təsərrüfatın canlanmasına və Azərbaycan mədəniyyətinin inkişafına təkan verdi. İslamaqədərki mədəniyyət məzmununu dəyişərək yeni keyfiyyət qazandı.

IX əsrdə Xilafət Babəkin başçılıq etdiyi xalq azadlıq hərəkatı nəticəsində zəifləmişdi. Xilafətə tabe olan ölkələrdə azadlıq müharibələri genişlənirdi. Azərbaycan Xilafətə qarşı azadlıq hərəkatının başlıca mərkəzlərindən biri idi. Xilafətə qarşı mübarizə bu imperiyanı zəiflətdi və Azərbaycanda bir sıra yerli feodal dövlətləri: Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər dövlətləri yarandı. Azərbaycanın qədim dövlətçilik ənənələri dirçəldi. Bu dövlətlərlə yanaşı, Şəki hakimliyi, Dərbənd və Tiflis əmirlikləri kimi nisbətən kiçik dövlətlər də yaranmışdı. Bu dövlətlərin hamısında İslam dini rəsmi din olmuş, Azərbaycan xalqının təşəkkülü üçün vacib olan vahid türk dili və türk-islam mədəniyyəti formalaşmışdı.

XI əsrin ortalarında Azərbaycanda fəaliyyət göstərən Şirvanşahlar, Şəddadilər və Rəvvadilər dövləti arasında siyasi və iqtisadi əlaqələr zəif idi. Onlar bir-biri ilə çəkişirdilər. Belə bir şəraitdə Orta və Yaxın Şərqdə Səlcuqilər imperiyası yarandı. Orta Asiya, İran, İraq, Suriya, Misir, Kiçik Asiya, Ön Qafqaz xalqları ilə birlikdə Azərbaycan da Səlcuqilərin hakimiyyəti altına keçdi. Səlcuqilər dövlətinin banisi oğuz tayfasına mənsub Səlcuq adlı şəxs idi. Səlcuq bir əsrdən artıq ömür sürmüş, islam dinini qəbul etdikdən sonra bu dinin bütün türklər arasında yayılması uğrunda mübarizə aparmışdır. 119 il fəaliyyət göstərən Səlcuqilər dövləti türkdilli xalqların hərbi-siyasi, sosial-iqtisadi və mənəvi inkişafına güclü təsir göstərmişdir.

XII əsrin 20-30-cu illərində Səlcuq sultanları arasında hakimiyyət uğrunda mübarizə nəticəsində mərkəzi hakimiyyət zəiflədi və nəticədə XII əsrin 30-cu illərində Azərbaycan Atabəylər dövləti yarandı.

*Azərbaycan Atabəylər dövlətinin yaranması və inkişafı*

Atabəylər dövlətinin yaradıcısı zəmanəsinin ağıllı diplomatı və uzaqgörən dövlət xadimi Şəmsəddin Eldəniz Eldəgizlər sülaləsinin (1136-1225) banisi idi. Orta əsrlərdə Azərbaycan dövlətçilik tarixində Atabəylər dövləti mühüm yer tuturdu. XII-XIII əsrlərdə Şəmsəddin Eldəniz Böyük Atabəy (atabəy əl-əzəm) adlanmağa başladı. Onun böyük oğlu və sultanın ana tərəfdən qardaşı Nüsrətəddin Cahan Pəhləvan sultanın əmir-hacibi, ikinci oğlu Müzəffərəddin Osman Qızıl Arslan isə sultan ordularının ali baş komandanı (əmir-sipahsalar əlkəbir) təyin edildi. Eldəniz özünün bütün əmirlərini dövlətdə yüksək vəzifələrə təyin etdi.

Bu dövrdən başlayaraq, atabəy Eldənizin bütün fəaliyyəti yeni dövlət hakimiyyətinin nüfuzunun möhkəmləndirilməsinə yönəldildi. İraq sultanlığının tərkibinə daxil olan vilayətlərin və ölkələrin bütün hakimləri, o cümlədən onun bütün vassalları sultan Arslan şaha və Böyük Atabəyə sədaqət andı içdilər. Ara müharibələri bir müddət dayandı və mənbələrin göstərdiyinə görə, xalq haqq-ədalət və sakitlik içərisində yaşamağa başladı.

Azərbaycan Atabəylər dövlətinin yaradıcısı Şəmsəddin Eldənizin hakimiyyətinə yekun vurarkən, qeyd etmək lazımdır ki, Şəmsəddin Eldəniz ona tabe olan ərazini genişləndirməyə çalışır və öz müasirləri vilayət hakimlərinin üsulları ilə əmirlərlə vaxtaşırı ittifaqdan istifadə edərək, həmin anda da, həmçinin dönükcəsinə və saymazyana hərəkət edirdi. Buna baxmayaraq, Böyük Atabəyin hər şeydən əvvəl mərkəzi hakimiyyətin hərbi qüvvələrinin və maddi ehtiyatlarının möhkəmləndirilməsinə yönəldilən fəaliyyətindəki yaradıcı anlar bizə daha əhəmiyyətli görünür. Eldənizin hakimiyyətinin sonlarına yaxın bütün dövlət quruluşu sisteminin nizama salınması, hər şeydən əvvəl vassalların mərkəzi hakimiyyətlə bağlılığının möhkəmləndirilməsi, sözsüz ki, hərbi qüdrətinin gücləndirilməsi ilə bağlı idi. Bir daha yada salaq ki, sultan Məsudun bütün hakimiyyət dövrü əmirlər ittifaqı ilə ara müharibələrində keçmiş və sultan hökuməti məhz hərbi gücsüzlüyü nəticəsində bu mübarizədə sərt və müstəqil mövqe tuta bilmədi. Mərkəzdən qaçan qüvvələrin öz fəaliyyətlərini davam etdirmələrinə, xarici siyasətin mürəkkəbləşdiyi dövrdə əmirlərin mərkəzi hakimiyyətdən müstəqilliyə can atmalarının güclənməsinə baxmayaraq, adi sərkərdələrdən olmayan atabəy Eldənizin hərbi qüdrəti ilə sultan suverenliyinin birləşməsi, feodal ierarxiyasında Böyük Atabəyin birinciliyinin rəsmi tanınması sultanlıq ərazisində siyasi vəziyyətin sabitləşməsinə səbəb olmuşdu. Eldəniz əsas qüvvələrini Gürcüstan ilə mübarizəyə təsadüfən toplamamışdı və öz hakimiyyətini bərqərar etdikdən sonra, adətən, güclü qonşuları ilə, xüsusən, Xarəzmşahlar dövləti ilə uzun münaqişələrdən qaçırdı.

Böyük Atabəy Eldənizin ölüm xəbəri Cahan Pəhləvana yetişən kimi, o, dərhal Həmədandan Naxçıvana yola düşdü, dövlət xəzinəsini və taxt-tacın əmlakını öz nəzarəti altına aldı. Bütün qoşunları bir yerə toplayaraq, atabəy hadisələrin sonrakı gedişini, sultan Arslan şahın ona qarşı münasibətinin məqsədini gözləməyə başladı.

Eldənizin siyasətindən narazı qalan İraq əmirləri Cahan Pəhləvanın sultanlığın paytaxtından getməsindən istifadə edərək, sultanı Azərbaycana hücuma keçməyə təhrik edirdilər. Onlar sultana məsləhət görürdülər ki, əgər sən Azərbaycanı azad etsən, oraya etibarlı adamlardan birini hakim təyin edib Həmədana qayıdar, oradan Bağdada gedib oranı tutarsan. Çünki sənin məmlükün-Mosul hakimi Qütbəddin Məudud ibn Zəngi sənə tabedir və sənə qulluq etməyə gəlir. Sonra əgər sən Bağdadı tutarsansa və Xilafətin minbərlərindən sənin adınla xütbə oxunarsa, ölkənin səması sənin üçün hər hansı rəqib və düşməndən təmizlənmiş olar.

Sultan Arslan şah da Eldənizin əleyhdarları olan əmirlərlə birlikdə böyük ordunun başında Azərbaycana yürüş təşkil etdi. Lakin Zəncanda sultan xəstələnir, azarının gücləndiyini və həyatının sona çatdığını hiss edən sultan Həmədana aparılması əmrini verir.

Həmədana qayıtdıqdan sonra sultan şəhərin rəisi əmir Seyyid Fəxrəddin Ələəd-Dövlə Ərəb şahının qızı ilə evlənir. Eyni zamanda, atabəy Cahan Pəhləvanı öz yanına dəvət edir və onunla barışır. Dövlətin idarə olunmasını ona tapşırdıqdan az sonra sultan ölür.

Atabəy Cahan Pəhləvanın ən görkəmli müvəffəqiyyətlərindən biri Təbrizin onun hakimiyyətinə birləşdirilməsi olmuşdur. Təbriz Ağ-Sunqur əl-Əhmədilinin nəslinə mənsub idi. 1175-ci ilin yayında Təbrizin və qonşu torpaqların hakimi Nüsrətəddin Arslan-Aba ibn Ağ-Sunqur öldükdən və onun yerinə varisi Fələkəddin Əhməd keçdikdən sonra Cahan Pəhləvan Ruin-Dej qalasını mühasirəyə alır. Qalanı ala bilməyib, mühasirəni Marağaya keçirdir. Bu vaxt atabəyin qardaşı Qızıl Arslan Təbrizi mühasirə edir. Marağa qazısı Sədrəddin əl-Marağı əhalini xilas etmək xatirinə şəhəri təslim verdiyindən Cahan Pəhləvan oranı, demək olar ki, döyüşsüz ələ keçirir. Burada bağlanmış sülh müqaviləsinə əsasən, Cahan Pəhləvan Təbrizə sahib olur, Marağa isə monqolların basqınına qədər öz sahiblərinin əlində (ixtiyarında) qalır. Cahan Pəhləvan Təbrizi iqta sifətilə qardaşına verir.

Atabəy Cahan Pəhləvanın xarici siyasətində ən çətin problemlərdən biri dövlətin qərb sərhədlərində asayişi təmin etmək idi. Məsələnin mürəkkəbliyi ondan ibarət idi ki, həmin vilayətlərdə (əl-Cəzirə və Şərqi Anatomiya) Misir və Suriyanın məşhur hakimi - Əyyubilər sülaləsinin banisi Səlahəddin Yusif (1169-1193) böyük fəaliyyət göstərirdi. Ona görə də, Cahan Pəhləvan qonşu hakimlərə daima təzyiq göstərir, mübahisəli məsələlərdə əksər hallarda barışdırıcı və vasitəçi rolunda çıxış edir, hamiliyində olanlara hərbi yardım göstərirdi.

Cahan Pəhləvanın hakimiyyətinin əsas yekunu Eldənizlər dövlətinin xarici siyasət mövqeyinin gələcəkdə daha da möhkəmləndirilməsindən ibarət olmuşdur. Lakin atabəyin hakimiyyətinin son dövrlərində vilayətlərin daxili vəziyyəti mürəkkəb idi: sonralar məlum oldu ki, Cahan Pəvləvanın həyata keçirdiyi tədbirlərin çoxu mərkəzi hakimiyyətin möhkəmlənməsinə eyni dərəcədə kömək edə bilməmişdir.

Eldənizlər dövləti tarixini tədqiqinin ən çətin dövrü XII əsrin 80-cı illərinin sonu 90-cı illər atabəy Qızıl Arslan və İraqın sonuncu Səlcuq sultanı III Toğrulun hakimiyyəti dövrüdür. Ərəb və fars mənbələrinin, o cümlədən bu dövrdə baş verən hadisələrin şahidlərinin məlumatları çox məhduddur. Lakin əlimizdə olan qısa məlumatlardan belə təsəvvür etmək olar ki, bu dövr siyasi hadisələrlə dolğun dövrdür və Azərbaycan Atabəyləri bu zaman ciddi sarsıntılara məruz qalmışdır.

Cahan Pəhləvan məmlüklər vasitəsi ilə dövləti idarə etmək üçün xüsusi sistem yaratmaqda öz şəxsi qullarının yardımına arxalanmış, eyni zamanda, məmlük yuxarı təbəqəsinin əsasını qoymuşdur. Onlar da atabəy Cahan Pəhləvanın ölümündən sonra 30 il ərzində baş vermiş bütün tarixi hadisələrdə həlledici rol oynamışlar. Bu məmlüklər böyük mənsəb və qüdrət sahibi olmuş və atabəyin ölümündən sonra İraq ərazisini zəbt etmişlər.

1206-cı ildə Çingiz xan tərəfindən Mərkəzi Asiyada yaradılmış Monqol dövləti ilk vaxtdan hərbi yürüşlərə başladı. Monqol ordusu geniş əraziləri tutaraq Azərbaycana doğru irəlilədi. 1220-ci ildə monqol qoşunu Cəbə və Sabutayın rəhbərliyi ilə Azərbaycan torpaqlarına daxil oldu və Təbrizə çatdı. Şəhər möhkəm qala divarları ilə əhatə olunmuşdu. Bunu görən monqollar danışığa girməyə üstünlük verdilər. Gürcüstana hücum edib məğlub etdikdən sonra monqollar Təbriz üzərinə yenidən hücuma keçdilər. Şəhər xərac verilərək təhlükədən xilas edildi.

1221-ci ilin əvvəllərində Marağaya və 1222-ci ildə Şamaxıya hücum edən monqollar şəhərləri talan etdilər. Bu hadisədən sonra monqollar şimala üz tutdular. Dərbəndi tuta bilməyəcəklərini anlayıb Azərbaycanı tərk etdilər. Talan olunmuş Azərbaycan zəifləyib gücdən düşmüşdü. Yeni torpaqlarda möhkəmlənmək istəyən Xarəzmşah şahzadəsi Cəlaləddin 1225-ci ildə Azərbaycana hücum etdi. Atabəylərin sonuncu hökmdarı Özbək Naxçıvana, Əlincə qalasına yollandı. Başsız qalan Təbriz əhalisi müdafiəyə qalxdı. Şəhər rəisi başda olmaqla əhali bir həftə döyüşdü və Cəlaləddin qələbə qazandı. Təbriz, daha sonra isə Gəncə zəbt edildi və bununla da Atabəylər dövləti süquta uğradı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Azərbaycan Ordusunda daşqaldırma birinciliyi keçirildi

*Azərbaycan Ordusunda idman yarışlarının keçirilməsi haqqında Müdafiə nazirinin əmrinə əsasən, Xocavənd rayon İdman Mərkəzində şəhid hərbi qulluqçuların xatirəsinə həsr olunmuş daşqaldırma üzrə ordu birinciliyi keçirildi.*



Tədbirdə general-mayor Mayis Bərxudarov, Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Müdafiə Nazirliyinin nümayəndələri və ictimaiyyətin nümayəndələri iştirak etdilər. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Ayrı-ayrı qoşun növlərində və birləşmələrdə xidmət edən 80 idmançının 14 komanda üzrə 6 çəki dərəcəsində mübarizə apardığı daşqaldırma yarışları birdən və təkanla qaldırma üzrə keçirildi. Gərgin mübarizə şəraitində keçən yarışların sonunda şəxsi hesabda kiçik çavuş Şamo Ələsgərov (60 kq), müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Marat Şeydabəyov (65 kq), kiçik çavuş Taleh Şıxəliyev (70 kq), əsgər İmar Qarayev (80 kq), əsgər Elsevər Zeynalov (90 kq) və kiçik çavuş Mübariz Balakişizadə (90 kq-dan artıq) birinci yerə layiq görüldülər. Yekun nəticələrə əsasən, komanda hesabında birinci yerə "Şəmkir", ikinci yerə "Beyləqan", üçüncü yerə "Bərdə" komandası çıxdı.

Birinciliyin təntənəli bağlanış mərasimində qaliblərə fəxri fərman, diplom və kuboklar təqdim edildi.



Tədbirdə çıxış edən general-mayor Mayis Bərxudarov qalibləri təbrik edərək şərəfli xidmətlərində uğurlar arzuladı. Zabit xatirəsi anılan şəhidlərin qəhrəmanlığından söz açaraq, göstərdikləri şücaətdən danışdı. Belə tədbirlərin şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığına müsbət təsirini vurğulayaraq qeyd etdi ki, şəhid hərbi qulluqçularımızın xatirəsi bizim üçün daim əziz və müqəddəsdir. "Vətənpərvərliyin ən ali məqamı - şəhidlikdir. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhid olmaq ən böyük şərəf və qürurdur. Bu ucalığa yüksələnlərin ömür yolu şərəflidir. Şəhidlərimizin hünəri hər bir gəncə örnəkdir. Hər bir Azərbaycan vətəndaşı, ordumuzun hər bir hərbi qulluqçusu öz Milli qəhrəmanlarını tanıyır, onların keçdiyi həyat yolundan çox şeyləri öyrənir. Şəhidlərin xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək hər kəsin vətəndaşlıq borcudur. Hər birimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda şəhid olanların xatirəsini anmağa həmişə borcluyuq. Çünki torpaqlarımızın bütövlüyü, ərazilərimizin toxunulmazlığı uğrunda canlarından keçən bu Vətən övladları sonsuz ehtirama, sevgi və məhəbbətə layiqdirlər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğısı, orduda idmanın inkişafına böyük dəstəyi nəticəsində Azərbaycan idmançıları beynəlxalq idman arenalarında yeni-yeni uğurlar əldə edirlər. Bu nailiyyətlər ordumuzun qüdrətini bir daha sübut edir, əsgərlərimizin fiziki sağlamlığına dövlətimiz tərəfindən xüsusi qayğı ilə yanaşıldığını göstərir. Hər bir hərbi qulluqçu yaxşı bilir ki, fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz tərkib hissəsidir. Döyüşlərdə düşmənə qalib gəlmək üçün fiziki güclü, iradəli və möhkəm olmaq lazımdır. Əsl hərbçi döyüşlərdə bacarıqlı döyüşçü, idman meydanında güclü idmançı olmalıdır. Bu yarışın belə yüksək səviyyədə təşkilinə görə yerli icra hakimiyyətinə təşəkkürümü bildirirəm. Qalibləri təbrik edir, şərəfli xidmətlərində uğurlar arzulayıram. Arzu edirəm ki, tezliklə Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad edək, belə mötəbər tədbirlərimizi Qarabağda təşkil edək."

Sonra kəşfiyyatçılar və Azərbaycan futbol çempionatının Region liqasında mübarizə aparan "MİL Beyləqan" futbol komandası nümunəvi çıxışlar nümayiş etdirdilər.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov belə bir tədbirə ev sahibliyi etməkdən şad olduğunu bildirdi. Torpağı Vətən edən, Vətəni sevdirən şəhidlərdir deyən icra başçısı vurğuladı ki, şəhidlərin xatirəsinə həsr olunan bu mötəbər tədbirin rayonumuzda təşkili üçün Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürümü bildirirəm. Göstərdikləri əzmkar mübarizəyə görə bütün idmançıları təbrik edən Eyvaz Hüseynov Azərbaycan əsgərinin idman sahəsində də kifayət qədər bacarıqlı olduğuna bir daha şahid olduqlarını dedi. "Hər bir xalqın, millətin dayağı və güvənc yeri onun ordusu və bu orduda şərəflə xidmət edən əsgərləridir. Bura şücaəti, igidliyi və dönməzliyi ilə adını qızıl hərflərlə tariximizin şanlı səhifəsinə yazdıran igid oğulların xatirəsinə həsr olunmuş birinciliyin bağlanış mərasimi üçün toplaşmışıq. Ölkəmizdə şəhidlərimizin əziz xatirəsi həmişə uca tutulur, daim yad olunur. Danılmaz faktdır ki, şəhidlərimizə dövlət səviyyəsində xüsusi diqqət və qayğı göstərilir. Onların adı, xatirələri əbədiləşdirilir. Şəhid ailələrinə dövlətimizin köməyi və yardımı getdikcə daha da artır. Şəhid adlarının əbədiləşdirilməsi, şəhid ailələrinin, Milli qəhrəmanların, müharibə əlillərinin və veteranlarının sosial təminatının yaxşılaşdırılması məqsədilə dövlətimiz tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Bu, həmişə belə olacaqdır. Şəhidlərimizin anımına həsr olunan tədbirlər keçirmək, məzarlarını ziyarət etmək hər birimizin mənəviyyat borcudur. Hər bir Azərbaycan vətəndaşı əsgər və zabitlərimizin döyüş bacarığına yaxşı bələddir. Biz qürurla və əminliklə deyə bilərik ki, ölkə başçımızın siyasətdə qazandığı uğurları döyüşlərdə təkrarlamağa hər an hazır və qadir olan şanlı ordumuz var. İnanırıq ki, Azərbaycan əsgəri tezliklə Böyük Qələbə sevincini xalqımıza yaşadacaq."

Sonra birinciliyin keçirilməsinə və təşkilatçılığına rəhbərlik edən Müdafiə Nazirliyinin zabiti polkovnik Sadiq Paşayev çıxış edərək belə yarışların hərbi qulluqçuların fiziki cəhətdən möhkəm və güclü olmaları baxımından əhəmiyyətindən danışdı. Döyüş hazırlığının ayrılmaz tərkib hissəsi olan fiziki hazırlığın rəhbərlik



tərəfindən daim diqqət mərkəzində saxlanıldığını vurğuladı. "Fiziki hazırlıq həm döyüş qabiliyyətinin artırılmasına, həm də sağlamlığın möhkəmləndirilməsinə istiqamətlənmiş fəaliyyət prosesidir. İdmanla məşğul olan hərbi qulluqçu möhkəm, dözümlü, yüksək əhval-ruhiyyədə və özgüvəndə olur. Həmçinin döyüş tapşırıqlarını daha çevik və dəqiq yerinə yetirir. Buna görə də hərbçilərimizin həm gündəlik, həm də peşəkar idman fəaliyyəti ilə məşğul olmaları üçün bütün bölmələrimizdə müasir idman avadanlıqları ilə təchiz olunmuş idman klubları və şəhərcikləri, trenajor otaqları fəaliyyət göstərir. Fiziki hazırlığın mahiyyətini yaxşı başa düşən hərbi qulluqçular hərbi xidmətləri ilə yanaşı, idman fəaliyyətlərini də yüksək səviyyədə davam etdirirlər. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən il ərzində Azərbaycan Ordusu miqyasında da bir çox idman birincilikləri keçirilir. Hərbçi idmançıların istər komanda, istərsə də fərdi şəkildə mübarizə apardığı bu yarışlar döyüş hazırlığının daha da artırılmasına, mənəvi-psixoloji hazırlıqlarının yüksəldilməsinə istiqamətlənir. Hər birimiz yaxşı bilirik ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Hərbi qulluqçularımız da idman arenalarında uğurlarla çıxış edirlər. Müxtəlif idman növləri üzrə beynəlxalq və ölkə səviyyəli turnirlərdə hərbçi idmançılarımız daim uğurlar qazanırlar. 2020-ci ildə də ordu miqyasında müxtəlif idman birinciliklərinin keçirilməsi planlaşdırılıb. Daşqaldırma birinciliyi bu il keçirilən ilk yarışdır. Bu yarış həm də ona görə yaddaqalan və əhəmiyyətlidir ki, 2017-ci ilin fevralında düşmən təxribatının qarşısını qəhrəmancasına alarkən şəhid olan hərbi qulluqçularımızın xatirəsinə həsr olunub. Bizim üçün hər bir şəhidimiz əzizdir, doğmadır. Onların xatirəsini daim yaşatmaq və gələcək nəsillərə tanıtmaq bizim mənəvi borcumuzdur. Yarışlar çox yüksək səviyyədə keçirildi. Bütün komandaların üzvləri yaxşı nəticələr göstərdilər. Qaliblər cüzi fərqlə üstün oldular. Kuboku "Şəmkir" komandası qazansa da, əsas qələbə ordu idmanımızındır. Qalibləri təbrik edirəm."

Keçirilən bu mühüm tədbirin şəhidlərin xatirəsinə həsr olunması ölkəmizdə şəhid və Milli qəhrəmanların xatirəsinin hər zaman uca tutulduğunun və ehtiramla yad edildiyinin bir daha sübutudur. Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan oğul və qızlarımızın adının əbədiləşdirilməsi və gələcək nəsillərə örnək göstərilməsi istiqamətində mütəmadi tədbirlər keçirilir. Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğısı, ordu idmanının inkişafına verdiyi böyük dəstək nəticəsində hərbçilərimiz müxtəlif idman növləri üzrə peşəkar şəkildə məşğul olurlar və beynəlxalq arenalarda ordumuzu layiqincə təmsil etməyə, yeni-yeni uğurlar qazanmağa qadirdirlər.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

Ovqat

# "Oğulun nümunəvi xidməti ata üçün xoşbəxtlikdir"

*Həyata açılan pəncərə... Görünən mənzərə... Həyat mənzərəsi. Gələcəyə uzanan, nəhayətsiz yollar. Bu yolların apardığı məqsədlər. Məqsədlərin görüşdürdüyü insanlar. Bu insanların xatirinə həkk etdirdiyi təəssüratlar uzun illər yaddaşından silinmir...*



Həyatda hadisələrin yaratdığı xatirələr yaddaşa həkk olunur. Bu təəssüratlar bəzən uzun zaman yaddaşından silinmir, müəyyən müddət keçdikdən sonra onlardan bəzilərini unudursan. Mənim də unutmadığım, unuda bilmədiyim xatirələr olub, böyük əksəriyyəti də ordu ilə bağlıdı. Əsgər Bəybala Zeynalovu tanıdığım gün həyatım boyu unutmayacağım xatirələrimdən olacaq...

Ön xətdə döyüş mövqelərindən birində gözüm ona sataşdı. Nəzəri məndə idi. Diqqətli baxışı ilə aurama daxil olmağı bacaran əsgərə yaxınlaşdım. Öyrəndim ki, adı Bəybaladır. Bir az söhbətləşdik. Suallarıma aldığım cavablar mənə könül xoşluğu verirdi. Bəybalanın cavabları düşmənə nifrət, Vətənə sevgi dolu idi... "Torpaq, dövlət, dövlətçilik, millət istəyini ürəyində yaşadaraq, bu sevgi ilə yaşamaq necə gözəl şeydir" - düşünürəm. Bu hisslər hər adama müəssər olmur.

... Söhbətin rəvan axışı növbəti suallara yol açdı. O suallara ki, ürəyindəki fırtına, içindəki sevgi ilə cavablandırdı, Bəybala... Nə bilmək olardı ki, saatlar keçəcək, mən Bəybalayla yol yoldaşı olacam, hətta onun haqqında məqalə də yazacam. Bunlar bir az sonra olacaq. O anda Bəybala Zeynalovla söhbətimiz sadəcə jurnalist və müsahib çərçivəsindəydi. Vətən qədrini bilən, düşmənə nifrət bəsləyənlər Vətənin yadından çıxmır. Osmanlı dövründə yaşamış böyük türk şairi Tofiq Fikrət "Vətən onu sevən insanların çiyinləri üstündə yüksəlir" deyərək vətənpərvər insanları digərlərindən üstün tuturdu.

Mənə belə gəldi ki, Bəybala məhz belə yaşayır, belə xidmət edir. Bəybala məzuniyyətə yollanır. Onunla birlikdə getməyə qərar verdim. Əsgərin valideynlərinə qəfil surpriz edəcəyini biləndə, bu görüşə həm şahid olmaq, həm də onların sevincinə şərik olmaq istəyi ilə Bəybalanı evlərinə aparacaqdım.

Bəybala ilə tanışlığımız yol yoldaşlığına çevrildi. Birgə Ağsu şəhərinə, əsgərin doğulub boya-başa çatdığı el-obasına yollandıq. Yolboyu Bəybalayla gah uşaqlığından, gah hərbi xidmətə yollanmasından söhbətlər etdik. Hər söhbətin sonunun Vətən sevgisinə, düşmənə nifrətə gəlib çıxırdı. Uşaqlıqdan vətənpərvər ruhda böyüməsində atası Fərhad kişinin əvəzsiz rolu olub. Atası Qarabağ müharibəsində döyüşüb. Həqiqətdir ki, Vətən uğrunda döyüşən bir atanın övladı bu qədər vətənpərvər olmalıdı. Söhbətlərin şirinliyi, könül yaxınlığı səmimi yol yoldaşlığı uzanan yolları geridə qoyur. Bəybala gah susur, gah danışır, gah da pəncərədən təbiəti seyr edir. Yollar qısaldıqca yol yoldaşımın həyəcanının daha da artdığını gördüm. Onunla birgə həyəcanlanır, Bəybalanı ailəsiylə görüşdürməyə tələsirdim... Bu anda bir hekayə xatırlayıram.

Qəlbimdə silinməz iz qoyan bu hekayəni mənə babam danışıb: "Məşhur bir rəssam dünyanın ən gözəl rəsm əsərini çəkmək qərarına gəlir. O, əsərinin mövzusunu tapmaq üçün uzaq səyahətə çıxır. Bir meşədən keçəndə nurani bir adamla qarşılaşır. Ona: "Dünyanın ən gözəl neməti nədir?" - sualına "İmandır", - cavabını alır. Rəssam yoluna davam edir. Bir kənddə toy məclisinə gəlir. İzdihamın arasından sıyrılaraq, gəlinə yaxınlaşır və eyni sualı ona da verir. "Dünyanın ən gözəl neməti məhəbbətdir", - cavabını alır. Yoluna davam edir. Bu dəfə müharibədən qayıdan yorğun bir əsgərlə qarşılaşır. Həmin sualın cavabını ondan da istəyir. Əsgər: "Dünyanın ən gözəl neməti sülhdür", - deyir. Aldığı cavabları kifayət hesab edən rəssam evinə qayıdır. Yolboyu səyahətdə şahidi olduqlarını götür-qoy etməyə başlayır. Eyni suala verilən üç fərqli cavabı əsərində birləşdirmək üçün yollar axtarır. Evinə çatır. Qapıdan içəri girdikdə dünyanın ən gözəl mənzərəsi ilə qarşılaşır. Övladlarının baxışlarında imanı, həyat yoldaşının gözlərində məhəbbəti, evində isə sülhü görür. Bu, rəssamın axtardığı idi. O, arzuladığı əsəri çəkməyə başlayır. Çox keçmədən dünyanın ən gözəl rəsm əsəri hazır olur. Rəssam əsərinə ad da verir: "Ailəm".

Əminəm ki, bu anda gözləri yollara zillənən Bəybalaya "Dünyanın ən gözəl neməti nədir?" sualını versəm, heç düşünmədən "Ailəm" cavabını verər.

Sualı vermədən də, bir azdan dünyanın ən gözəl mənzərəsi ilə qarşılaşacağıma əminəm...

Ağsudayıq. Rayonun mərkəzi küçələrinin birindən keçərkən Bəybala qəfildən atası Fərhad kişini gördü. Titrək səslə: "Baxın, atam ordadır", - dedi. Avtomobili saxlayıb, yol yoldaşıma səbirlə gözləməsini xahiş etdim. Fərhad kişiyə yaxınlaşdım. Məni hərbi mundirdə görən kimi salamlaşır. "Oğlum əsgər gedəndən, hərbi mundirli hər kəsi övladım bilirəm", - dedi. Oğlu Bəybala haqqında danışmağa başladı. Ata danışır, mən dinləyirəm, dinlədikcə düşünürəm: "Məni görüb sevindi, hələ özümlə oğlunu gətirdiyimi biləndə uçmağa qanad axtaracaq". Həqiqətən də, belə oldu. Bəybala avtomobildən enib atasının qarşısında qəfil dayananda, Fərhad kişinin bir "oğlum" deyişi vardı ki, insan bədənin bütün əzalarına təsir edirdi. Gəlişimizlə əsgər atasına sanki dünyanı bağışladıq. Yolüstü o ki var söhbət etdik. Oğul atasının sevinci hədsiz idi. Fərhad kişidən Nəmidə anaya xəbər etməməsini xahiş etdim. Ona da surpriz etmək niyyətində idik. Belə də oldu, tez-tələsik evin yolunu tutduq. Fərhad kişi gah övladını öpübqucaqlayır, gah da söhbət edirdi. Həmin anda Fərhad kişidən





qəfil "Qonaqları necə qarşılayacaqlar görəsən", - deyə soruşuram.

- Ailəmiz qonaq-qaralıdı. Bu vaxtlar evimizdən qonaq əskik olmazdı. Qonaqpərvərlik xalqımızın əxlaqında xüsusi yeri olan bir keyfiyyətdir. Qonağı gülərüzlə, məmnunluqla qəbul etmək ona göstəriləcək qonaqpərvərliyin ilkin əlamətidir. Qonağın salamını gözəl şəkildə, gülərüzlə almaq da əxlaqımızın əmridir. Nahaq yerə demirlər ki, qonağı gülərüz qarşılayıb, salamını gözəl şəkildə almaq qonaqpərvərliyin yarısıdır. El arasında birisinin qonaq getdiyi yerdən gec gəlməsini zarafatla "Niyə gecikdin, yoxsa salamını ucadan almışdılar?" - deyərək qeyd etmək də bu fikri sübut edir. Deməli, qonağı gözəl qarşılamaq, salamını alıb "xoş gəlmisən" demək, sevinc içərisində evə dəvət etmək qonağı qarşılayanların əxlaqının gözəlliyindən xəbər verir, - əsgər atası deyir.

Yol bitir... Bəybala dillənir... "Anamı görəcəyimə elə sevinirəm ki, köksümdən ürəyim çıxacaq sanki." Əsgəri intizarda saxlamırıq. Qəfil qapını açıb içəri girir. Anası geriyə çevrilib övladını görür. Ana və əsgər balasının görüşünü izləmək o qədər təsirli idi ki, bir anlıq üzünü döndərib baxmaqdan qaçınır, bu sevincin verdiyi qəhəri boğursan. Bu an bütün gözəl xatirələrtək ömür yaddaşımın xatirə dəftərinə unudulmaz şəkildə həkk olunur. Axı hər kəlməsində Vətən sevgisi, torpaq həsrəti olan Bəybalanı, Qarabağ döyüşlərinin iştirakçısı olan Fərhad kişini, övladına unudulmaz məhəbbətlə sarılan Nəmidə ananı necə unutmaq olar?..

Əsgərimizin ailəsiylə çay süfrəsi arxasında söhbətimi yekunlaşdırdıqdan sonra yola düşürəm. Uzanan yollar məni düşüncələrə aparır, səngərdən evə gələn Bəybalanın, yəqin ki, ailəsiylə söhbətləri dan yerinəcən bitməyəcək...

**Kapitan**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrində acınacaqlı şərait, tibb xidmətinin keyfiyyətsiz təşkili və onsuzda çatışmayan dərman preparatlarının vəzifəli şəxslər tərəfindən oğurlanaraq satılması, öz maraqları naminə istifadə edilməsi ucbatından şəxsi heyət arasında xəstəliklər tüğyan edir.

İşğal edilmiş Madagiz yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun hərbi hissəsində əsgərlər Boris Arustamyan və Narek Yenukyan təcili olaraq hərbi hospitala yerləşdirilib. İlkin olaraq şəxsi heyət arasında vahimə yaratmamaq məqsədilə hər ikisinə soyuqdəymə diaqnozu qoyulub. Lakin əsgərlərin yaxınları övladlarının hər ikisinin "donuz qripinə" yoluxduğunu iddia edirlər. Bəzi mənbələr isə şəxsi heyət arasında "koronavirusun" yayıldığını iddia edir.

Bu hadisə barədə hərbi hissənin zabiti A.Maruxyan yuxarı komandanlığa məruzə edib.

Fakt ictimaiyyətdən gizlədilsə də, hərbi hissələrə həkim briqadaları ezam edilib və komandirlərlə profilaktik tədbirlərin görülməsi ilə bağlı ciddi göstərişlər verilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində daha bir əsgər "dedovşina"nın qurbanı olub.

İşğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun hərbi hissəsinin əsgəri Albert Sarkisyan xidmət yoldaşı tərəfindən vəhşicəsinə döyüldüyü üçün hərbi hospitala yerləşdirilib.

Həkimin əsgərin valideynlərinə bildirdiyinə görə aldığı çoxsaylı zərbələr nəticəsində hərbi qulluqçu A.Sarkisyanın daxili orqanları ciddi zədələnib. Əsgər təcili əməliyyat edilərək onun zədələnmiş dalağı götürülüb və hazırda hərbi həkimlər onun böyrəklərinin sıradan çıxmasının qarşısını almağa çalışırlar.

Fakt ictimaiyyətdən gizlədilsə də, hərbi polis tərəfindən araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Kapitan Qafarov Müseyib Cavid oğluna 2012-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 84
Nüsxə 3900